# Ozondağıdıcı maddələrlə əlaqədar idxal-ixrac fəaliyyətinin dövlət tənzimlənməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu»nun tərəflərinin qəbul etdiyi «Monreal Protokoluna düzəliş»in təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanunundan irəli gələn öhdəliklərin yerinə yetirilməsini tə`min etmək məqsədi ilə **qərara alıram:**

~~1. Müəyyən edilsin ki, Monreal Protokoluna qoşulmayan dövlətdən (dövlətə) bu Protokolun E qoşmasına daxil edilmiş maddənin (metil bromid) Azərbaycan Respublikasına idxalı və Azərbaycan Respublikasından ixracı qadağandır.~~

~~2. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları»nın 3 nömrəli əlavəsinin idxal-ixrac bölmələrinə müvafiq olaraq aşağıdakı məzmunda abzas əlavə edilsin:~~

| | |
|---|---|
| ~~*«ozondağıdıcı maddələr» (Monreal Protokoluna qoşulmayan dövlətlərdən (dövlətlərə) metil bromidin idxalı və ixracı istisna olmaqla)*~~ | ~~*— Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi*~~ |

~~3. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli 637 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının Siyahısı»na aşağıdakı məzmunda 80-ci bənd əlavə edilsin:~~

| | |
|---|---|
| ~~*«80—ozondağıdıcı maddələrin idxalı və ixracı (Monreal Protokoluna qoşulmayan dövlətlərdən (dövlətlərə) metil bromidin idxalı və ixracı istisna olmaqla)*~~ | ~~*— Ekologiya və Təbii Sərvətlər Nazirliyi*~~ |

4. «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasının tə`min edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 392 nömrəli Fərmanının 3-cü bəndi qüvvədən düşmüş hesab edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabineti:

- ~~bu Fərmanın ikinci bəndində göstərilən fəaliyyət növünə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarını və~~ idxalı və ixracı dövlət tərəfindən tənzimlənən ozondağıdıcı maddələrin siyahısını iki ay müddətində hazırlayıb təsdiq etsin;
- bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 21 dekabr 2001-ci il***

***№ 608***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (22 dekabr 2001-ci il, № 292) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2001-ci il, № 12, maddə 754) («VneshExpertService» LLC).***

***23 oktyabr 2003-cü il tarixli, 980 nömrəli; 29 mart 2006-cı il tarixli, 386 nömrəli Fərmanlara əsasən əlavə və dəyişikliklərlə («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*